■ İlqar Cəmiloğlu

## Arxasız Qalmışam

Cəmil Əkbər, Firuzə Paşaqızı, Zakir Cəmil, Müzadi Cəmil, Şəhla İlqarqızı, Azər Hacıoğlu, Məhərrəm Həşimoğlu ve Babək Qurbanov'un nurlu xatirələrinə.

Köçüm köç edibdir, qalanım yoxdur,
Şənlik məclisimdə çalanım yoxdur,
Həqiqət deyirəm, yalanım yoxdur,
Arxasız qalmışam, arxalı dağlar.

Hər bahar gələndə qəm içindəyəm,
Könlüm nalə çəkər, nəm içindəyəm.
Arzum başa çatmır, kəm içindəyəm,
Arxasız qalmışam, arxalı dağlar.

Gedənlər getdilər, qalana yazıq,
Dərd-hicran sazıyla çalana yazıq,
Xəyala qapılıb, dalana yazıq,
Arxasız qalmışam, arxalı dağlar.

Bir kimsə halımı sormaq istəməz,
Başımdan qəm qalxar, boran tüstüməz,
Əyildi şah-vüqar, sındı şəstimiz,
Arxasız qalmışam, arxalı dağlar.

Gözlərim yol çəkir neçə illərdir,
Atam, anam, qardaş, qızım güllərdir,
Qəlbimdə qara qan axar, sellərdir,
Arxasız qalmışam, arxalı dağlar.

Bahar fəsli novruz gələr, xoş gələr,
Bülbül-gülə cilvəsiylə müjdələr,
Qəlbimdə məzartək açar lalələr,
Arxasız qalmışam, arxalı dağlar.

Pənahıma yetiş, ey Pərvədigar?
Övladın dərd çəkər, ismidir *İlqar*!
Kömək ol sən ona, cənabi-Haqq, yar,
Arxasız qalmışam, arxalı dağlar.
Ümidsiz, çarəsiz, yırğalı dağlar.